# Salman Nərimanovun "Səyahətnamə" əsəri işıq üzü gördü




Mütərəqqi ziyalılarımızın ötən əsrlərdə əski əlifba ilə yazıb- yaratdığı qiymətli əsər və əlyazmaların əhəmiyyətli bir qismi son dövrlər elm adamlarımızın səyi nəticəsində transliterasiya edilərək cəmiyyətə təqdim olunur. İlk azərbaycanlı mürəttib, mühərrir-yazıçı Salman Nəcəf oğlu Nərimanovun (1847. Tiflis - 1907. Bakı) XX əsrin əvvəllərində qələmə aldığı və bu günlərdə ilk dəfə nəşr olunmuş "Səyahətnamə" əsəri də bu qəbildəndir.

Dövrümüzə əlyazma şəklində gəlib çıxan əsəri tədqiqatçı alim Arif Ramazanov çapa hazırlamışdır. Əlyazma ədəbiyyatşünas, filologiya elmlər namizədi Həbibulla Səmədzadənin (1908-1945, filoloq, pedaqoq, mətnşünas) şəxsi arxivindən götürülərək AMEA-nın M.Füzuli adına Əlyamalar İnstitutunda saxlanmaqdadır. Kitaba ön sözü muzeyin sabiq böyük elmi işçisi Rəna Qəhrəmanova yazmışdır.

Bu kitabın nəşrinə nail ola bilmək üçün zəhmətini əsirgəməyən hər kəsə, xüsusilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyeva dərin minnətdarlığımızı bildiririk.

Kredo .- 2023.- 21 iyun.- S.9.